# Uşaq dünyası



**İnqilab İsak**

## ALYA

Bax,bu da bizim Ayla
Adı qonşudu ayla.
Ay çiçəkdi adında
Aylı nağıllar bilir
Nələr yoxdu yadında?
Nağıllar bapbalaca
Aylanın boyu kimi
Nağıllar şipşirindi
“ Dadlıdı” onu kimi.
Nənə öpür Aylanı
O qol açır, qol açır
Babanın qucağına
Əlləriylə yol açır.
Elə ki gecə düşdü
Bizim gözəl Aylanın
Fikri ayladı, ayla.
Nənə dilində layla,
Ana dilində layla,
Ayla yuxuya gedib,
Yat şirin-şirin, Ayla...

## XƏBƏRÇİ HƏZİ

Yenə bu Həzi
İncidir bizi.
Nədir istəyi
Bilmirik düzü.
Kim nə danışsa
Şəklənir baxır.
Sinir xəlvətə
Təklənir baxır.
Bağçada hamı
Mat qalıb ona.
Söz də tapmırıq
Girdiyi dona.
...Deyir bəs niyə
Ağladı Pəri?
Qapını iplə
Bağladı Pəri.
Orxan oyadıb
Yataqdan bizi.
Sərxan incidir
Bayaqdan bizi.
Doldu qulağım
Bəsdi, ay Həzi.
Bu nə xəbərdi
Səsdi, ay Həzi.
Hər bir xəbəri
Əzbərçi Həzi.

## SƏNƏ NAĞIL DANIŞIM

Kəndin kitabxanası
Hər gün dolur adamla.
Mən də oraya getdim,
Getdim bir gün atamla.

Sıralarda kitablar,
Çərgələnib birbəbir.
Elə bilki hər kitab,
Dostum – darıxdım deyir.

Aldım nağıl kitabı,
Dedim məndə oxuyum.
Nağıl oxuduqca mən
Daha gəlməyir yuxum.
Kitablarla nə qədər
Artıb dostum, tanışım.
Çoxlu nağıl bilirəm
Dedim yatma, ay nənə
Sənə nağıl danışım.

## BOŞ SƏBƏT

İstədim moruq dərim,
Tikan batdı əlimə.
Gördüm əlimi cızdı
Qələmsiz nəsə yazdı:
-Çiçək vaxtı, ay oğlan
Sən mənə daş atmısan,
Qəlbimi qanatmısan.
İndi züy-züy ağlama,
Ürəyimi dağlama.
Acıqlıdı tikanım,
Hər çiçəkdə yara var.
Əl vurduqca sızlayar
...Bir söz tapa bilmədim
Günahkaram dinmədim.
Atdığım daşa baxıb
Yanaqlarım qızardı.
Uzatmadım söhbəti.
Boş qaytardım meşədən
Apardığım səbəti

## EYNƏK AXTARIR BABAM

Babam qoca deyil ha,
Ağarsa da saçları.
Yerişinə, sözünə
Yaxından baxın barı.

Hər gün qəzet oxuyur,
Dünyadan var xəbəri.
O canı ağrıyanda
Yatmır açır səhəri.

Atam, anam, bir də mən
Qulluğunda dururuq.
Qocanı qocalıqdan
Əl-ələ qoruyuruq.

Birdən ara qarışır,
Bilmir neyləsin adam.
Eynəyi gözündədi,
Eynək axtarır babam.

## YERDƏN GÖYƏ

Ac göyərçin,
Ac göyərçin,
Mənim ovcum
Dənlə dolu
Dənə sarı
Qaç göyərçin.
Qanadını
Sər torpağa.
Səpildikcə
Dən torpağa.
Dənlə - dənlə
Dimdik - dimdik.
Yeyib boydun.
Qanadların
Çırpındıqca
Oyun- oyun.
Kimdi axı
Sənə deyən
Ac göyərçin?
Qanadını
Aç göyərsin.
Yerdən göyə
Qaç göyərçin...

## BABAMIN ATI

Cıdır düzündə çapıb,
Çapıb babamın atı.
Şimşək-şimşək qanadı
Söz-söhbəti bayatı.

O vəfalı atından
İndi nələr danışmır.
Yamyaşıl düzənlərin
Yoxluğuna barışmır.

Babam daha qocalıb
Yanında yoxdu kəhər.
Amma Şuşa- deyəndə
Qəlbini boğur qəhər.

Deyir Cıdır düzündə
Yenə də atım çapar.
Atım da arzusuna
Mənimlə qoşa çatar.

## CƏNNƏTİN BAĞBANI

Bu çöl daşdı,
Bu çöl alaq.
Belləmişəm
Varaq-varaq.
Daşı seçib,
Daşlamışam.
Alaqları
Yolub-yolub,
Yerində gül,
Gül əkməyə
Başlamışam.
Yerdə tingə
Puçurlanıb.
Çöl güllənib,
Çöl dillənib,
Cənnət olub.
Bu cənnətin
Bağbanı bağ,
Zəhmət olub.

## GÜLLÜ BİNA

Nənəm tez-tez sulayır
Həyətdəki gülləri,
Güllərin də uzanır
Dibçək-dibçək əlləri.
Güllərə bax güllərə
Salamlayır hamını,
Bacarırsan indi gəl
Onları bir-bir tanı
Gül ətrinə bürünüb,
Gül kimidi otağım,
Ətir saçır yatağım.
Yaşayırıq axı biz,
Uca, qəlbi binada.
Güllərində döyünür
Sanki, qəlbi binada.
Eyvanlar dibçək-dibçək,
Güllərdən tutub bəzək.
Sevinərəm nə yaxşı
Belə açılır səhər.
İndi bizim binaya
Güllü bina deyirlər.

## NƏNƏMİN TƏQAÜDÜ

Bu Türkanın,- kitab al
Bu Nərminin “aylığı”.
Bu Günaya çatacaq
Təzələsin yaylığı.
Şəkərbura payı da
Nənəmin qazancıdı.
Yenə payından küsən,
Küsəyən qız Pərişdi.
Əliyə bax, Əliyə
O da sığmır nənniyə.
Nənəni görən kimi
Tez atılır nənəyə.
Yoxsa Əli pay umur,
Gözünü açıb yumur.
Bilirsiniz uşaqlar,
Bu bankir qoca kimdi?
Bax o mənim nənəmdi
Açıqdı pul kisəsi.
Nənəmin təqaüdü
Sevindirir hər kəsi

## SƏRNİCDƏ SU

Sərnicdəki
Süd yox sudu.
Nənəm deyir
İsti gündə
Tez söndürür
Sərnic odu.
-Ay Lamiyə,
Taxçadadı
Sərnic odu.
Su sərnicdə
Sərnic, sərnic
Get ləzzətlə,
Get sərin iç.